# Diskurs-təhlil nəzəriyyəsinə metodoloji yanaşma

**Hafizə Abdinova**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Kooperasiya Universiteti*
**E-mail:** kasumovaaynur@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos.Y.A. Allahverdiyev,
ped.ü.f.d., dos.T.S. Paşayev

**Açar sözlər:** diskurs-analiz, konseptual anlayış, diskursiv fəza, metodoloji yanaşma, diskursologiya

**Ключевые слова:** дискурс-анализ, концептуальное понятие, дискурсивное пространство, методологический подход, дискурсология

**Key words:** discourse–analysis, conceptual understanding, discursive space, methodological approach, discourse

Son illərdə müxtəlif ölkələrin tədqiqatçılarının diskurs-nəzəriyyəsi məsələləri, diskurs-təhlil metodologiyası, müxtəlif diskurs təcrübələrinin öyrənilməsi və diskursun növlərinə nəzərəçarpan qədər marağın artması müşahidə olunur. Diskurs-tədqiqatları problemləri üzrə elmi kommunikasiya inkişafı sahəsində fəal işlər aparılır. Diskursun bu və ya digər növlərinin konseptual anlayışına dair konfrans və elmi nəşriyyatların sayı artır. Bu gün humanitar elmin elə bir sahəsi, ictimai təcrübənin elə bir növü yoxdur, ki orada diskurs-tədqiqatlardan istifadə olunmasın. Bir çox müasir alimlər üçün humanitar və sosial-siyasi elmlərdə diskursiv çevriliş aydın və həyata keçmiş fakt olmaqdadır.

Baxmayaraq ki, «diskurs-təhlil» anlayışı «dikursologiya» anlayışından çox əvvəl yaranmışdır, sonuncunun istifadəsi daha çox üstün tutulur. Çünki zənnimizcə, «dikursologiya» adında diskursun butun növlərinin və onların öyrənilməsi üsullarının qlobal nəzəri-metodoloji sintezi özünü əks etdirir.

Lakin yuxarıda deyilənlər, diskurs-təhlilin heç də elmi şüurda sırf alət funksiyası daşıması demək olduğunu sübut etmir. Diskurs-təhlillə bağlı çoxsaylı işlərə müraciət sübut edir ki, onların müəllifləri diskursun öyrənilməsinin fundamental-nəzəri və fəlsəfi problemlərinə böyük maraq göstərirlər. Məhz diskurs-təhlilin çərçivəsində diskurs-tədqiqatların geniş inkişaf etmiş tənqidi diskurs-təhlil, poststruktural diskurs-təhlil, siyasi diskurs-təhlil, psixoloji diskurs-təhlil və s. kimi istiqamətləri meydana çıxmışdır.

Diskursun formalaşması tədqiqatrarının son onilliklərdə yığılan təcrübə, özündə nəzəri və metodoloji yanaşmaların inkişafını əks etdirərək, dəfələrlə tarixi-analitik nəticələrin obyektinə, nəzəri innovasiyaların aşkar olunmasının, sistemləşməsinin və klasifikasiyasinin materialına çevrilmişdir. Ixtisaslaşdırılmış mətbuat və konfranslar diskursologiya sahəsində nəaliyyətlər və əmək prosesinin nümayişində müəyyən töhfələrini vermişlər.

Onların arasında «Dikursologiya: metodologiya, nəzəriyyə, təcrübə» adlı beynəlxalq illik konfrans, 2006cı ildən etibarən Ural diskursologiya məktəbi tərəfindən Rusiya federasiyasının bir çox şəhərlərində və müxtəlif ölkələrdə keçirilir. Məhz bu konfransın fəaliyyəti dövründə, «Dikursologiya» beynəlxalq elmi ensiklopediyası layihəsi fikri ilk dəfə səslənmişdir. Müxtəlif səpkidə olan mövzularla zəngin çoxsaylı konfrans görüşləri «Dikursologiya» ensiklopediyasının müəllif kollektivinin hazırlığı üçün sərfəli və əhəmiyyətli məşq meydanına çevrildi.

Diskurs-tədqiqatlar sahəsində aparılan çoxsaylı işlərin öyrənilməsi, müxtəlif elmi istiqamətlərin kökündə duran diskursun interpritasiyasına yanaşmaların əsasına nəzər yetirməyə imkan yaratdı. Ensiklopediya nəşrində, diskursun və diskurs-təhlilin nəzəriyyəsi, aşağıdakı metodoloji yanaşmalar maksimal dərəcədə təqdim etməyi nəzərdə tutulur:

— sosiolinqvistika, linqvokulturologiya, linqvopsixologiya metodlarını özündə cəmləyən diskursun təhlilinə linqvistik yanaşmalar,

— diskursun güclü xüsusiyyətlərinə diqqəti yetirən diskursun kratoloji şərhi

— diskursa işarə-simvollu mədəni təhsil, mədəni kod kimi yanaşan diskursun semiotik konsepsiyaları

— diskursun kommunikativ məqsəd və sosial funksiyalarına diqqəti cəlb edərək diskursun sosial-kommunikativ şərhi

— reallığın dəyişdirilməsi və layihələşdirmə baş verən şəbəkəli kommunikativfəza kimi təqdim edən diskursun postmodern şərhi

— diskursum istiqamətlərindən biri tənqidi diskurs-təhlil özündə müxtəlif elementlərini cəmləyən diskursun təhlilinə birləşdirən yanaşmalar

Bununla yanaşı, yuxarıda sadalanan yanaşmalar alternativ və ya əks prinsipcə yox, diqqət və vurğulamada diferensial fərqə daxil olan əlavə prinsipi baxımından aid edilir. Qeyd olunan yanaşmaların paradiqmal quraşdırılması bir-biri ilə rəqabət etmir, daha çox, spesifik tədqiqat optikasını təqdim edir.

Diskur-təhlilin təcrübəsində müxtəlif müəlliflərin işlərindən irəli gələn, tamamilə məhsuldar sintez, rəngarəng metodoloji elementlərdə rast gəlmək olur. Faktiki olaraq, diskursun elə bir «təmiz» yanaşması yoxdur ki, orada digər tədqiqatçıların fikri bilinməsin.

Bu o deməkdir ki, diskursun mövcud anlayışları intelektual çoxsəsliliyin, polifonik dialoqun və fənlərarası tədqiqatların inkişafı əsasında işlənmişdir.

Polifoniya prinsipinə dayaq, ensiklopedik layihənin mərkəzi metodoloji quraşdırmasından biridir. Bu prinsip mədəni-tarixi mövzulu məqalələrdə müxtəlif metodların geniş istifadəsini təklif edir.

Boyük diqqət ensiklopediyada diskursun struktur-koqnitiv komponentlərinin ayrılmaz hissəsi kimim çıxış edən və artıq diskursiv tədqiqatların fokusuna çevrilmiş terminlərin təhlilinə, anlam və anlayışına yetirilməlidir.

Anlayış (termin) – ensiklopediyada diskursun bu və ya digər növünü bildirən, çoxlaylı məna paketi, müəyyən birləşmə adı kimi izah edilir.

Bundan belə çıxır ki, termin anlayışın verbal forması, anlayış isə — diskur-təhlil prosesində səmərəli anlayış, emosional obraz və həyəcan, dəyərli istiqamətləri özündə cəmləyən mədəni, həmçinin metaforik söz və ifadələri konqlomerat edən çoxölçülü mental təhsil deməkdir.

Anlayışın məzmunlu tərəfi onun ruhi təşkilinin açma prosesini – anlama və emosional obrazını açıqlayır. Anlayışın mahiyyət-məna baxımından açıqlanması, onun bütün spektrlərinin, ruhi, həmçinin milli-mədəni komponentlərinin aşkar olunması deməkdir.

Diskursiv fəzada anlayışın nisbətən tam açması, anlayış fəzası adlanan anlama və emosional obrazlar sistemi yaradır. Məsələn, «səyahət» anlayışı, özünün diskursiv oxunuşunda «yol», «fəzanı fəth etmək», «ekspedisiya», «macəra», «risk», «marşrut», «xəritə», «bələdçi», «yol göstərən», «gid», «gəlmə/getmə», «qonaqpərvərlik», «ekskursiya», «görməli yerlər» və sair kimi anlayışları təqdim edir. Bundan əlavə, verilən anlayış milli-mədəni adət, akt və obrazlar sistemini özündə cəmləyir. Məsələn, Azərbaycan diskursu «səyahət»i anlayış fəzasının özündə «yola çıxmaq», «yol üstündə»,«yolçu yolunda gərək», «yolçuluq»kimi adət

aktını cəmləyir.

«Diskurs-təhlil» termini diskurs konsepsiyası nəzəriyyəsinin gələcəkdə inkişafı və kompleksli, genişmiqyaslı ümumiləşdirilir və dəqiq elm sahələrində istifadə olunan diskurs-tədqiqatları texnologiyaları və metodlarının təsvirində aşılanır.

**Məqalənin aktuallığı.** Hal-hazırda hər hansı bir dildə diskur-təhlilin təcrübəsində müxtəlif müəlliflərin işlərindən irəli gələn, tamamilə məhsuldar sintez, rəngarəng metodoloji elementlərə rast gəlmək olar.

**Məqalənin elmi yeniliyi.** Diskurs-təhlil metodologiyası, müxtəlif diskurs təcrübələrinin öyrənilməsi və diskurs-təhlil nəzəriyyəsinin inkişafı bütün elm sahələrində genişmiqyaslı ümumiləşdirilməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Humanitar və sosial-siyasi elmlərdə diskurs-tədqiqatlardan geniş istifadə olunur və diskursiv çevriliş aydın və həyata keçmiş fakt olaraq qalmaqdadır.

## Ədəbiyyat


1. Борботько В.Г. Элементы теории дискурса. Грозный: Изд-во Чечено-Ингуш. гос. ун-та, 1981.
2. Гийому Ж., Мальдидье Д. О новых приёмах интерпретации, или проблема смысла с точки зрения анализа дискурса // Квадратура смысла. М.: Прогресс, 1999.
3. Демьянков В.З. Доминирующие лингвистические теории в конце XX века // Язык и наука конца XX века. М.: Ин-т языкознания РАН, 1995.
4. Ван Дейк Т.А. К определению дискурса. Л.: Сэйдж пабликэйшнс, 1998.
5. Степанов Ю.С. Альтернативный мир, Дискурс, Факт и принцип Причинности // Язык и наука конца XX века: Сб. ст. / Под ред. Ю.С. Степанова. - М.: РГГУ, 1995.
6. The Discourse Attributes Analysis Program and Measures of the Referential Process.
7. Linguistic Society of America: *Discourse Analysis*, by Deborah Tannen.
8. Discourse Analysis by Z. Harris. A discourse analysis related international conference: You can find some information and events related to Metadiscourse Across Genres by visiting MAG 2017 website.


**Х. Абдинова**

## Методологический подход к теории «дискурс-анализ»
## Резюме

Данная статья дает методологический подход к теории «дискурс-анализ». А также, определяется разница между терминами «дискурс-анализ» и «дискурсология» с точки зрения языкознания.

**H. Abdinova**

## Methodological approach to the theory "discourse-analysis"
## Summary

The given article deals with the methodological approach to the theory "discourse-analysis". Also, it identifies the difference between the term "discourse-analysis" and "discourse" from the point of view of linguistics.